## Azərbaycan dili

1. Hansı cümlədə mürəkkəb ad cümlənin təyinidir?
A) Şirkətin rəhbəri Rəsulov işçilərlə görüşdü.
B) Azərbaycan Respublikası zəngin neft ölkəsidir.
C) Milli Şuranın sədri M.Ə.Rəsulzadə parlamentdə çıxış etdi.
D) Kənd ağsaqqalı Xəlil kişi gənclərə nəsihət edirdi.
E) Universitetin rektoru Eldar müəllim tələbələrin qarşısında maraqlı nitq söylədi.

2. “*Torpaqlarımızın ordumuz tərəfindən azad edilməsi xalqımızın əhvali-ruhiyyəsinə güclü təsir etdi*” cümləsi haqqında düzgün fikirləri müəyyən edin.
1. Baş üzvlər ismi birləşmələrlə ifadə olunub.
2. Cümlə yalnız baş üzvlərdən ibarətdir.
3. Zərflik feili xəbərə aiddir.
4. Bütün sözlər müstəqil cümlə üzvüdür.
5. Leksik mənası olmayan söz işlənməmişdir.
A) 1,2,3 B) 1,5 C) 1,2,5
D) 3,5 E) 2,3,4

3. “[Hansı] mövzunu istəyirsinizsə, [o] mövzunu təkrar eləyin” cümləsində çərçivə daxilində verilmiş sözlərin hər ikisinə aiddir:
1. Cümlənin təyinidir.
2. Mürəkkəb cümlənin komponentlərini əlaqələndirir.
3. Suala cavab verir.
4. Sifəti əvəz edib.
5. Xəbərlə sintaktik əlaqədədir.
A) 4,5 B) 2,3,5 C) 1,2,3
D) 2,3,4 E) 1,4

4. Müəyyən şəxsli cümlələri müəyyən edin.
1. Təbiətin qoynunda dincəlməkdən zövq alırdıq.
2. Nəvəmin ilk ad günü idi.
3. Çayın kənarında məclis qurulumuşdu.
4. Qonağı belə qarşılayarlar?
5. Bu uşaqların təhsil haqqı dövlət tərəfindən qarşılanır.
A) 1,2,3 B) 1,3,5 C) 2,4,5
D) 1,2,4 E) 3,4,5

5. Klasteri tamamlaya bilən sözləri müəyyən edin.

Son hecası iki leksik şəkilçidən ibarət söz — hamarlan; ___; ___; ___

1. gileylən 2. qucaqlaş 3. dalğalan
4. gözlət 5. qurulan
A) 1,2,3 B) 3,4,5 C) 2,4,5
D) 1,3,5 E) 1,2,4

6. Hansı tabesiz mürəkkəb cümlənin tərəfləri bağlayıcı ilə ***əlaqələnməyib***?
A) Yaxşı arzular insanı yaxşı əməllərə yönəldər, təhrik edər.
B) Şeiri oxudum və əzbərlədim, sinifdə söyləyəndə müəllim çox razı qaldı.
C) Hava çox isti idi, dağlarda isə qar görünürdü.
D) Yazın gəlməsinə baxmayaraq, ağaclar çiçək açmamışdı.
E) Hava nə açılır, nə də yağış yağırdı.

7. Cədvələ əsasən uyğunluğu müəyyən edin.

| ***Tabesiz mürəkkəb cümlə*** | ***Tabeli mürəkkəb cümlə*** |
|---|---|
| ***Doğrudur*** | ***Yanlışdır*** |
| 1. Yara sağalar, yeri qalar.<br>2. Mən tənbəl-tənbəl evdə oturmuşdum, yoldaşlarımı gözləyirdim.<br>3. Onun iyirmi yaşı var idi, şərqli gözü ilə baxanda çox arıq idi. | 4. Əfsus ki, düşündüyümüz, dediyimiz alınmadı.<br>5. Bilirik, dünyaya biz niyə gəldik.<br>6. Belə vacibdirsə, gözləyin. |

A) 1,3,4 B) 2,5,6 C) 1,2,6
D) 3,4,5 E) 1,2,5

8. Verilmiş nümunəyə uyğun sadə cümlənin şəxsə görə növünü müəyyən edin.
“*Qatarın yola düşməsinə lap az qalmışdı.*”
A) Sentyabrda hamını yığıb aparırdılar üzüm yığmağa.
B) Bu günün işini sabaha qoyma.
C) Artıq səhər açılmaq üzrədir.
D) Dostlar, salaməleyküm.
E) O əldə toxunan xalçadan bizdə də var idi.

9. Söz-cümlə kimi işlənə ***bilməyən*** sözü müəyyən edin.
A) bərəkallah B) heyif C) yaxşı
D) deyərsən E) qətiyyən

10. Cümlələrin birində feili birləşmə ***işlənməyib***:
A) Axşamdan yatan uşaqlar tezdən oyandılar.
B) Külək əsməyə başlayanda hamı narahat olurdu.
C) Tamaşa etdiyimiz bu möhtəşəm qala Qız qalasıdır.
D) Təbrizi görmək çoxdankı arzum idi.
E) İstəyirəm ki, ürəyində fikirləşdiklərini dilinə gətirəsən.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam

11. Nümunədə hansı durğu işarələrinin buraxıldığını müəyyən edin.
*Nəhayət titrək səslə Mən sizi sevirdim dedi.*
A) İki vergül, qoşa nöqtə, iki tire
B) Üç vergül, qoşa nöqtə, dırnaqlar, bir tire
C) İki vergül, qoşa nöqtə, dırnaqlar, bir tire
D) Bir vergül, qoşa nöqtə, üç tire
E) Üç vergül, qoşa nöqtə, nida, bir tire

12. Cədvəldən doğru bəndləri müəyyən edin.

| ***Cümlə*** | ***Məqsəd və intonasiyaya görə növü*** | ***Növün xüsusiyyəti*** |
|---|---|---|
| 1. Bəs bu dünyada inam, etibar hara itib? | Sual cümləsi | Bu cümlələr cavab gözləməyən, fikrin təsir gücünü artırmaq üçün də işlədilir. |
| 2. Həyətdəkilər, zəhmət olmasa, bir qədər gözləsinlər. | Nəqli cümlə | Xəbəri həm feili, həm də ismi xəbər olur. |
| 3. Heç kəs meydandan uzaqlaşmasın. | Əmr cümləsi | Xəbəri feilin yalnız bir şəklinin təsdiq və inkarında olur. |
| 4. Rəşadətli ordumuza eşq olsun! | Nida cümləsi | Əmr ədatlarından da istifadə oluna bilmir. |
| 5. Bəs siz harada qaldınız? | Sual cümləsi | Xəbəri feilin bütün şəkilləri ilə ifadə oluna bilir. |

A) 1,3,5 B) 2,3,4 C) 1,2,4
D) 3,4,5 E) 1,2,5

13. Eyler-Venn diaqramına görə uyğunluğu müəyyən edin.




a. Orfoqrafik qaydalarla tənzimlənir.
b. Durğu işarəsidir.
c. Ümumiləşdirici söz həmcins üzvlərdən sonra gəldikdə istifadə edilir.
d. Rəqəmlərə şəkilçilər artırılarkən istifadə olunur.
e. Sözü sətirdən sətrə keçirərkən istifadə olunur.
A) 1-b,c; 2-d,e; 3-a
B) 1-a,b; 2-d,e; 3-c
C) 1-d,e; 2-b,c; 3-a
D) 1-b,d; 2-a,e; 3-c
E) 1-b,c; 2-d; 3-a,e

14. Yazıya aid ***yanlış*** fikirdir:
A) Ünsiyyət vasitələrindən biridir.
B) Sillabik yazı səsli yazının daha inkişaf etmiş mərhələsidir.
C) Səsli dilin norma ilə qavrayışını təmin edən işarələr sistemidir.
D) Hərfi yazı orfoqrafik normaya əsaslanır.
E) Səsin getmədiyi uzaq məsafədə olan insanlarla ünsiyyət ehtiyacından yaranıb.

15. Cədvələ əsasən uyğunluğu müəyyən edin.

| ***Dil*** | ***Nitq*** |
|---|---|
| 1. Əşya və hadisələri adlandırır. | 3. Oxu, yazı, dinləyib anlama və danışma şəklində təzahür edir. |
| 2. Konkret işarələr sistemidir. | 4. Ünsiyyət vasitəsidir. |
| 5. Ünsiyyət prosesidir.<br>6. Cəmiyyət xaricində yaranmır. | |

A) 1,2,3 B) 4,5,6 C) 1,3,6
D) 2,3,5 E) 1,2,6

16. Cədvələ əsasən uyğunluğu müəyyən edin.

| ***Tabesiz mürəkkəb cümlə*** | ***İfadə etdiyi məzmun*** | ***Doğru/ Yanlış*** |
|---|---|---|
| 1. Həyət-bacada ocaq tüstülənir, qız-gəlinlər bulaq üstünə gəlirdilər. | Hadisələr ardıcıl baş verir. | Doğru |
| 2. Bir neçə məktub yazmışam, hələ cavab yoxdur. | Hadisələr qarşılaşdırılır. | Doğru |
| 3. Gülnarə cəld, çevik hərəkət edir, səsində inam, qətiyyət hiss olunurdu. | Tərkib hissələrində hadisələr eyni zamanda baş verir. | Yanlış |
| 4. Yağış yağdı, küçədə gölməçələr yarandı. | Birinci tərkib hissə səbəb, ikinci tərkib hissə nəticəni bildirir. | Doğru |
| 5. Məktəbdən sonra ya ali məktəbə qəbul olmalısan, ya da bir yerdə işləməlisən. | İki işdən birinin mümkünlüyü bildirilir. | Yanlış |

A) 1,2,3 B) 3,4,5 C) 1,2,4
D) 2,4,5 E) 1,3,5

17. Cədvələ uyğun sözləri müəyyən edin.

| **Tələffüzü doğrudur** | **Tələffüzü yanlışdır** |
|---|---|
| 1. [əməx`daşdıx] | 4. [iddiyalı] |
| 2. [dəyərrəndirmək] | 5. [k`urik`ulum] |
| 3. [epik`lix`] | 6. [güzarannıx] |

A) 2,4,5 B) 1,2,4 C) 3,5,6
D) 2,3,4 E) 1,3,6

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
Tmebilikteam

18. Hansı cümlədə ara söz modal sözlə ifadə ***olunmayıb***?
    A) Mən bilən, tədbir saat $17^{00}$-da keçiriləcək.
    B) Pərvazlandı, deyəsən, könlümün quşu.
    C) Sizə kömək edəcəyəm, təbii ki.
    D) Sözün düzü əyrisini kəsər.
    E) Danışdığın zaman, əvvəla, ifadələri düzgün seçmək lazımdır.

19. Nöqtələrin yerinə yazmaq olar:
    *Əgər -ın$^4$ şəkilçisindən sonra heç bir şəkilçi işlətmək olmursa, onda ... .*
    A) ... isim mənsubiyyət şəkilçisi qəbul edib.
    B) ... həmin söz feilin əmr şəklindədir.
    C) ... söz ismin müəyyən yiyəlik halındadır.
    D) ... həmin şəkilçi leksik şəkilçidir.
    E) ... artırılan feil məchul və ya qayıdış növdədir.

20. ***Yanlış*** yazılan mürəkkəb adları müəyyən edin.
    1. Orxon-yenisey abidələri
    2. İsmayıllı Rayon Təhsil Şöbəsi
    3. Humanitar Fənlər gimnaziyası
    4. Əməkdar incəsənət xadimi
    5. Nəsimi adına Dilçilik İnstitutunun terminologiya şöbəsi
    A) 1,2,3 B) 3,4,5 C) 1,3,5
    D) 1,2,4 E) 1,4,5

21. Subyektin hərəkəti öz üzərində icra etdiyi cümlələri müəyyən edin.
    1. Burada tanış adam olmadığı üçün ürəyim sıxılırdı.
    2. Xeyli piyada getdim və yoruldum.
    3. Yuxarı çıxdıqca yol daralırdı.
    4. Onun üzü günün altında işləməkdən qaralmışdı.
    5. Əkdiyim qızılgüllər açılmışdı.
    A) 1,2,3 B) 3,4,5 C) 1,2,4
    D) 1,2,5 E) 2,3,4

22. Nəticə, ümumiləşdirmə bildirən ara söz hansı cümlədə işlənmişdir?
    A) Antenin birincisi Həmid kişigildə quraşdırıldı.
    B) Onun dürüstlüyü haqqında, düzü, indi də danışırlar.
    C) Sanki qayanı çapıb ondan heykəl düzəltmişdilər.
    D) Nəhayətdə hər şey yaxşılıqla qurtardı.
    E) Beləliklə, yaralandıqdan sonra hərbi xidmətimə son qoyuldu.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

**Açıq tipli test tapşırıqları:**

23. Nitq hissəsi ilə ifadə ***olunmayan*** xitabları müəyyən edin.
    1. Ümid sənədir ancaq, Azərbaycan əsgəri! (*Qabil*)
    2. Vidadi, Vidadi, Gözlərin aydın!
       Vaqif qonaq gəlir. (*S.Vurğun*)
    3. Günah mənimkidir, əfv elə, ustad! (*S.Vurğun*)
    4. Aşıq Şəmşir, Dəlidağdan keçəndə
       Kəklikli daşlardan xəbər al məni. (*S.Vurğun*)
    5. Səndən danışıram, Araz, ay Araz. (*M.Araz*)

24. *F.Köçərli demişdir ki, dil hər bir millətin mənəvi diriliyidir* cümləsi vasitəsiz nitqə çevrilərsə, hansı dəyişikliklər baş verər?
    1. Cümlə bütövlükdə sadə cümləyə – müəyyən şəxsli cümləyə çevrilər.
    2. Durğu işarələrinin sayı artar.
    3. İki vergüldən istifadə edilər.
    4. Qoşa nöqtədən istifadə edilər.
    5. Nümunə M:“V” sxeminə uyğun olar.

25. Hansı cümlələrdə əvəzlik ismi əvəz etmişdir?
    1. Bu dünyanın qara daşı göyərməz. (*M.Yaqub*)
    2. Azərbaycan – mayası nur, qayəsi nur ki,
       Hər daşından alovdilli ox ola bilər. (*M.Araz*)
    3. Toxuyardı özünə yaşıl otlardan köynək! (*N.Gəncəvi*)
    4. Filankəsi kim vurdu, söylə, filan küçədə (*N.Gəncəvi*)
    5. Mən Arazda şaxələnən çinardım. (*M.Araz*)

26. Hansı sözlər tərkibinə görə düzgün təhlil edilmişdir?
    1. qırıntılar
    2. səpələndi
    3. köklənmişdir
    4. bildirkilərdən
    5. yüksəlişimizdə

27. Uyğunluğu müəyyən edin.
    1. Sadə cümlə
    2. Tabesiz mürəkkəb cümlə
    3. Tabeli mürəkkəb cümlə
    a. Xeyli vaxt keçmişdi, kəşfiyyatçılar hələ geri qayıtmamışdılar.
    b. Sakitcə anama baxdım, amma heç nə demədim.
    c. Taxtından düşdünsə, səndən bezərlər.
    d. Gedənlər qayıtmaz, gələnlər qalmaz.
    e. Yaxşılığı, mərhəməti sabaha saxlama.

t.me/BilikTeam1

***Mətni oxuyun və 28-30-cu sualları cavablandırın.***

İsti yay gecələrindən biri idi. Edison laboratoriyasından evə getmişdi. Bu vaxt həyat yoldaşı ona bu təklifi etdi.

– Çoxdandır ki, heç istirahər etmirsən. Bəlkə, bir yerə istirahətə gedəsən?

Edison həyat yoldaşından:

– Axı hara gedə bilərəm? – deyə soruşdu.

Qadın:

– Dünyada ən çox getmək, görmək istədiyin yer haradırsa, ora get! – deyə cavab verdi.

– Yaxşı, sabah o yerə gedəcəyəm, – deyə Edison razı oldu və ertəsi gün yenə öz ................. getdi.

28. Mətndə altından xətt çəkilmiş cümlədə məzmuna uyğun olmayan hansı söz düzgün işlədilməmişdir? Onun yerinə hansı sözü işlətmək daha doğrudur?

______________________________________

29. Mətnin məzmununa uyğun olaraq son cümlədə nöqtələrin yerinə hansı sözü yazmaq olar?

______________________________________

30. Mətndən çıxan məntiqi nəticəni bir cümlə ilə yazın.

______________________________________

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

## Tarix

31. Anaxaqanlığının mövcud olduğu dövrə uyğun gəlir:
A) Köçmə maldarlıq meydana gəldi
B) Tacirlər qrupu sənətkarlardan ayrıldı
C) Metallurgiya meydana gəldi
D) Axirət dünyasına inam yarandı
E) Neandertal tipli insanlar meydana gəldi

32. Qədim Roma və Ərəb xilafətinin “Rəşidi xəlifələr” dövrü üçün ümumi cəhəti müəyyən edin:
A) Frank imperiyası ilə mübarizə
B) Bizansın məğlub edilməsi
C) Xəzər xaqanlığı ilə toqquşmalar
D) Misirin ələ keçirilməsi
E) Yunanıstanın tabe edilməsi

33. I Dünya müharibəsi illərinə aid ***doğru*** faktları müəyyən edin:
1. İngilislərə qarşı zəhərli xlor qazından istifadə edildi
2. ABŞ-nin müharibəyə daxil olduğu ildə müharibə başa çatdı
3. Almaniya ilk dəfə sualtı qayıqlar tətbiq etdi
4. Almaniya, Avstriya-Macarıstan, Osmanlı və Bolqarıstandan ibarət “Dördlər ittifaqı” meydana gəldi
5. Marna döyüşündə ingilislər ilk dəfə tanklardan istifadə etdi
A) 1,3,4 B) 2,5 C) 1,2,5
D) 3,4 E) 2,3,5

34. 1030 – cu il Slavyan yürüşünə aiddir:
1. Alan və Sərirlər slavyanlar ilə ittifaqda idi
2. Musa ibn Fəzl qardaşına qarşı slavyanları köməyə çağırdı
3. Dərbənd hakimi slavyanları köməyə çağırdı
4. Abaskun adası qarət edildi
5. Beyləqan əhalisinə divan tutuldu
A) 1,2,3 B) 3,4,5 C) 1,2,4
D) 1,2,5 E) 2,3,5

35. Şumer şəhər – dövlətləri üçün səciyyəvi ***deyil***:
A) E.ə XXIV yüzillikdə kutilər tərəfindən işğal edildi
B) E.ə IV minilliyin sonu, III minilliyin əvvəllərində meydana gəlmişdi
C) Hökmdar “ensi”, yaxud “luqal” adlanırdı
D) İdarəetmə teokratiyaya əsaslanırdı
E) Eyni mədəniyyətə malik olsalar da, hər birinin öz hökmdarı var idi

T.me/BirlikTeam

36. Qaraqoyunlu hökmdarı Cahan şahın hakimiyyəti dövründə Təbrizdə tikilmişdir:
A) Baştağ abidəsi
B) Qeysəriyyə bazarı
C) Həşt – behişt sarayı
D) Göy məscid
E) Gülüstan abidəsi

37. Uyğunluğu müəyyən edin:
Orta əsrlərdə:
1. Fransa 2. İngiltərə 3. İtaliya
a) Mərkəzləşmiş dövlət yaranmadı
b) Kresi döyüşündə qalib gəldi
c) Kilsə torpaqlarından vergi alınması Roma papası ilə münaqişəyə səbəb oldu
d) Kral tərəfindən Böyük azadlıqlar xartiyası adlı sənəd imzalandı
A) 1-b; 2-a,c; 3-d B) 1-c; 2-b,d; 3-a
C) 1-a; 2-c; 3-b,d D) 1-b; 2-c; 3-a,d
E) 1-c; 2-d; 3-b

38. Eyler – Venn diaqramına əsasən uyğunluğu müəyyən edin:




a) 1759-cu ildə Qarabağ xanlığına hücum etdi
b) Şiraz hakimi idi
c) Məğlub edilməsi nəticəsində Təbriz xanlığı müstəqilliyini bərpa etdi
d) XVIII əsrin II yarısında fəaliyyət göstərmişdir
e) Qaraçəmən döyüşündə iştirak etmişdir
A) 1-c,e; 2-a,b; 3-d B) 1-a,e; 2-c; 3-b
C) 1-d; 2-c,e; 3-a,b D) 1-b,c; 2-d; 3-a
E) 1-b; 2-a,c; 3-d,e

39. Rusiyada zadəganların imtiyazlı təbəqəyə çevrilməsini rəsmiləşdirdi:
A) “Azad taxılçılar” haqqında fərman
B) II Yekaterinanın zadəganlar haqqında verilən fərmanı
C) “Məclis Qanunnaməsi”
D) İcra və məhkəmə səlahiyyətləri olan senatın yaradılması
E) IV İvanın boyar müxalifətini ləğv etməsi

40. Uyğunluğu müəyyən edin:

Memarlıq abidələri

| 1. XVII əsr | 2. XVIII əsr |
| --- | --- |
| a. Təbrizdə Şibli karvansarası<br>b. Şuşada Şahbulaq qalası<br>c. Nardaran kəndində məscid | a. Şamaxının Kələxana kəndində tikilmiş məqbərə<br>b. İrəvanda Göy məscid<br>c. Sərdar Sarayının Güzgülü salonu |

A) 1-a,c; 2-b,c B) 1-c; 2-a
C) 1-a; 2-b,c D) 1-c; 2-b
E) 1-b; 2-a

41. Müqəddəs Roma imperatoru V Karl:
1. Reformasiyaya qarşı mübarizə aparırdı
2. Katolikliyi müdafiə edirdi
3. Kalvinizmi dövlət siyasətinə çevirdi
4. İsa cəmiyyəti adlı təşkilat yaratdı
A) 3,4 B) 2,3 C) 1,4
D) 2,4 E) 1,2

42. 1870-ci il kəndli islahatı haqqında əsasnaməyə aiddir:
A) Kəndli pay torpağını alarkən dövlət tərəfindən ona heç bir yardım göstərilmirdi
B) “Əsasnamə” Azərbaycan dövlət kəndlilərinə şamil edilirdi
C) Komendant idarə üsulu ləğv olunurdu
D) Xəzər vilayəti bəylərinin torpaqları müsadirə edilirdi
E) Bəylər kəndlilər üzərində inzibati, polis və qismən məhkəmə hüququ verilirdi

43. XIX əsrin II yarısı ilə bağlı verilmiş hadisələrin uyğunluğunu müəyyən edin:




A) 2,4,6 B) 1,3,6 C) 2,3,5
D) 2,4,5 E) 1,4,5

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

44. Salamin və Plateya döyüşləri üçün oxşar cəhətləri müəyyən edin:
1. Əhəmənilər Afina dəniz ittifaqı tərəfindən məğlub edildi
2. Yunanlar qələbə qazandı
3. Leonid və döyüşçüləri qələbə qazandı
4. Əhəməni hökmdarı I Dara məğlub oldu
A) 1,4 B) Yalnız 2 C) 2,3
D) 3,4 E) 1,2

45. I Dünya Müharibəsindən sonra Yaponiyanın ABŞ-yə qarşı qisasçılıq siyasətinin əsasını qoyan səbəblərdən biri idi:
A) Brian – Kelloq paktı
B) Versal müqaviləsi
C) Brest – Litovskda separat sülh
D) Millətlər Cəmiyyətinin yaradılması
E) Çinin müstəqilliyi və ərazi bütövlüyünün tanınması

46. Böyük Səlcuq dövlətinin mövcud olduğu dövrə uyğun gəlmir:
A) Dəndənəkanda Qəznəlilərin məğlub edilməsi
B) Abbasilərin paytaxtı Bağdadın ələ keçirilməsi
C) Konya və Ankara şəhərlərinin tutulması
D) Qüdsün xaçlılar tərəfindən ələ keçirilməsi
E) Səlcuq bəyin Oğuz yabqusu ilə münasibətlərinin pisləşməsi

47. **Mətn-1**
Qütbəddin Aybəkin kürəkəni qərbdə monqol hücumlarını dəf etməklə yanaşı, şərq istiqamətində dövlətin ərazilərini daha da genişləndirdi. Monqol hücumlarına qarşı mübarizə aparan Xarəzmşah Cəlaləddinə öz ərazisində sığınacaq verdi, Abbasi xəlifəsi ilə dostluq əlaqələri yaratdı.
**Mətn-2**
Gənc yaşlarında Səmərqənd və Bəlx hakimi Əmir Qazana xidmət edirdi. Əmir Qazanın vəfatından sonra Əmir Hüseyn ilə ittifaq bağlayıb qohum oldu.

***II Mətndə bəhs edilən dövlət xadimi I Mətndə bəhs edilən dövlət xadimindən fərqli olaraq:***
1. XIV əsrdə fəaliyyət göstərmişdir
2. Dehli sultanlığını idarə etmişdir
3. Çingiz xanın soyundan idi
4. Məmlüklər sülaləsinin nümayəndəsi idi
5. Qızıl Ordu qüvvələrini məğlub etmişdi
A) 2,5 B) 1,3 C) 3,4 D) 1,5 E) 2,3

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

48. Qədim Albaniya dövləti üçün səciyyəvi *deyil:*
1. Quldarlıq digər dövlətlərlə müqayisədə geniş yayılmamışdı
2. E.ə III əsrin I yarısında hökmdarlar öz pullarını kəsdirməyə başladı
3. E.ə IV əsrin sonlarında meydana gəldi
4. Ariobarzanın Atropatenada hakimiyyətə gəlməsinə kömək etdi
5. Makedoniyaya qarşı müqavimət göstərmişdi
6. Maqneziya döyüşündən sonra müstəqilliyini bərpa etdi
A) 4,5,6 B) 1,2,3 C) 2,4,5
D) 1,3,6 E) 2,4,6

49. Xəritədə ştrixlənmiş ərazinin tarixinə aid xüsusiyyətləri müəyyən edin:



1. Təbəriyyə döyüşü baş vermişdi
2. Xaçlılar tərəfindən Latın imperiyası yaradılmışdı
3. XI yüzilliyin əvvəllərində bir sıra əmirliklərə parçalandı
4. Rekongista hərəkatı baş vermişdi
A) 1,2 B) 3,4 C) 1,4
D) 2,3 E) 1,3

50. Baş nazir Otto fon Bismarkın fəaliyyəti dövrünə aiddir:
A) 1848-ci il Almaniya inqilabı
B) Sadova döyüşündə Avstriyanın məğlub edilməsi
C) Almaniya ittifaqında gömrük rüsumlarının ləğv edilməsi
D) Vyana konqresində Almaniya ittifaqının təşkili
E) Elzas və Lotaringiyanın Fransaya qaytarılması

t.me/BirlikTeam

51. Verilən xüsusiyyətlərin aid olduğu orta əsr Azərbaycan şəhərini müəyyən edin:
*- Ərəb xilafətinin yüksəlişi dövründə Azərbaycan memarlığının inkişaf mərkəzi idi.*
*- Mənbələrdə "bu yerlərin Bağdadı" adlanırdı.*




A) 1 B) 2 C) 3 D) 4 E) 5

52. Bakı və Lənkəran xanlıqları üçün ümumi cəhətdir:
A) Şəki və Quba xanlıqları arasında bölüşdürüldü
B) İkihakimiyyətlilik mövcud idi
C) Gürcü hakiminin yürüşlərinə məruz qaldı
D) Quba xanlığından asılı vəziyyətə düşdü
E) 1806-cı ildə xanlıq hakimiyyəti ləğv edildi

**Açıq tipli test tapşırıqları:**

53. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərindən fərqli olaraq Səfəvilər:
1. Güclü mərkəzləşmiş dövlət qurmuşdu
2. Teokratik idarəetməyə əsaslanırdı
3. Şirvanşahlar dövləti asılı hala salınmışdı
4. Osmanlı ilə müharibədə qalib gəlmişdir
5. Xorasanı ələ keçirmişdir

54. Xronoloji ardıcıllığı müəyyən edin:
1. Əfqanların üsyan qaldıraraq Qəndəharı ələ keçirməsi
2. Aleksey Mixayloviçin Səfəvilər ilə danışıqlar aparması
3. Sultan Hüseynin əfqanlar tərəfindən əsir alınması
4. Uğurlu Məhəmmədin Osmanlıya sığınması

55. Hadisə - nəticə əlaqələrinin doğru göstərildiyi cavabları müəyyən edin:

| № | Hadisələr | Nəticələr |
|---|---|---|
| 1 | Savalan döyüşü | Xəzərlərin Azərbaycan ərazilərinə yürüşlərinə son qoyulması |
| 2 | Xəlifə Mötəsimin hakimiyyətə gəlməsi | Xürrəmilər ilə sülh müqaviləsinin imzalanması |
| 3 | Bəzz döyüşündə məğlubiyyət | Babəkin Bizansa tərəf yönəlməsi |
| 4 | Heydər ibn Kavusun komandan təyin edilməsi | Babəkin yaxın silahdaşları sui – qəsd ilə aradan götürüldü |
| 5 | Cavidan və Əbu İmran arasında ədavətin hökm sürməsi | Bəzz döyüşündə Xürrəmilərin məğlub edilməsi |

56. Xəritədə qara rəng ilə verilmiş ərazinin XIX əsr tarixi üçün xarakterikdir:



1. 1868-ci ildə Tiflis quberniyasının tərkibindən ayrıldı
2. XIX əsrin I rübündə Yelenendorf və Annenfeld koloniyaları salındı
3. Xanabad manufakturası açıldı
4. Hacı Murtuzun rəhbərliyi ilə üsyan baş verdi

57. Uyğunluğu müəyyən edin:
1. XIII əsrin I yarısı
2. XIV əsrin II yarısı
3. XV əsrin I yarısı
a. Şirvanşahların Kür çayı sahilində döyüşdə məğlub edilməsi
b. Ali Monqol canişinliyi idarəçiliyinin sona çatması
c. Ağsunqurilər dövlətinin süqutu
d. Şirvan ərazisinin Cəlairi dövlətinin tərkibinə daxil edilməsi

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
t.me/BirlikTeam1

***Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və tapşırıqları cavab vərəqində yerinə yetirin.***

İngilis ordusunun yaxşı donanması vardı... Onlar bu donanmanın köməyi ilə Lamanş boğazını keçib Fransa ərazisində hərbi əməliyyatlara başladılar... Müharibənin əvvəlində fransızlar məğlub olmağa başladılar... İngilislər Akvitaniya tərəfdən hücuma keçdilər. Laura çayından cənubda yerləşən Puatye şəhəri yaxınlığında döyüş baş verdi... Fransızlar sayca çox idilər. Lakin onlar dağınıq hərəkət edirdilər. Ön dəstədəki fransız cəngavərləri əsas qüvvələrin gəlib çıxmasını gözləmədən ingilislərə hücuma keçdilər. Vuruşa-vuruşa irəli çıxan fransız cəngavərləri döyüş cərgələrini pozur, vuruşma zamanı bir-birinə mane olurdular... Fransız ordusunun döyüş yerinə yetişən əsas qüvvələri də darmadağın edilir.

58. Mənbədə bəhs edilən müharibənin başlanma səbəblərini yazın:

59. Mənbədə bəhs edilən döyüşün nəticələrini qeyd edin:

60. Tarixi biliklərinizə əsasən bəhs edilən müharibə dövründə İngiltərədə baş vermiş üsyanın azı iki nəticəsini qeyd edin:

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

## Ədəbiyyat

61. Bayatı janrı haqqında verilmiş xüsusiyyətlərdən biri ***yanlışdır:***
A) Lirik növün ən geniş yayılmış janrlarından biridir.
B) Həcmcə yığcamdır; 4 misradan, hər misrası isə 7 hecadan ibarətdir.
C) Qafiyə quruluşu adətən *a-a-b-a* şəklində olur.
D) Əsas fikir, adətən, birinci və ikinci misralarda verilir, son iki misra isə hazırlıq xarakteri daşıyır.
E) Xalqın kədərini, sevincini, fəlsəfi baxışlarını çox vaxt rəmzi şəkildə ifadə edir.

62. "Kitabi-Dədə Qorqud" eposu ilə "Koroğlu" dastanının ortaq cəhəti kimi verilə ***bilməz***?
A) Epik-lirik növün nümunəsi hesab olunması
B) Xalqın azadlıq və vətənpərvərlik ideyalarının əks olunması
C) Dastanın əsas qəhrəmanlarının sadə xalqın nümayəndələri olması
D) Qadın qəhrəmanlar cəsarətli obrazlar kimi verilməsi
E) Nəsrlə nəzmin növbələşməsi prinsipi üzərində qurulması

63. Ə. Cavadın "Səsli qız" poeması əsasında cədvəldəki uyğun fikirləri müəyyən edin.

| Doğrudur | Yanlışdır |
|---|---|
| 1. Şəhər əhalisi işğalçı xaqanı qorxu və məcburiyyət qarşısında, "şallaq gücü ilə" gülərək qarşılayır. | 3. Sara xaqanı zəhərləməmişdən əvvəl ona öz nifrətini açıq şəkildə bildirir və intiqam alacağını qışqırır. |
| 2. Məğlub ölkənin şahı xaqanın hüzurunda öz qürurunu qoruyur və ona tabe olmaqdan qətiyyətlə imtina edir. | 4. Əsərdə din nümayəndələrinin işğalçı xaqana itaət göstərməsi və beyət etməsi təsvir olunur. |

A) 1, 3 B) 1, 4 C) 2, 3 D) 2, 4 E) 1, 2

64. M.Ə. Sabirin "Neylərdin, İlahi?!" şeirinin məzmununa əsasən, aşağıdakı fikirlərdən hansı **səhvdir**?
A) Xalqın hər zülmə dözməsi və səssiz qalması tənqid edilir.
B) Əməyin istismar olunması, kəndlinin əziyyət çəkib xeyrini bəylərin görməsi vurğulanır.
C) Dünyada ədalətin tam bərqərar olduğu, sadəcə bəzi insanların naşükürlük etdiyi bildirilir.
D) Zahiri dindar görünən varlıların yoxsul müsəlmanları kafirlikdə ittiham etməsi pislənir.
E) Bu əsərdə şair bəşəri dəyərlərin qoruyucusu mövqeyində dayanır.

65. “İblis” əsərinin (H.Cavid) obrazları ilə bağlı verilmiş hansı fikir **yanlışdır?**

| | Obraz | Obraza aid fikir |
|---|---|---|
| A) | Arif | Dünyadakı haqsızlıqlardan, qan tökülməsindən mənəvi əzab duyan, fəlsəfi düşüncəli bir gəncdir. |
| B) | Vasif | Düşmən əsgərinə belə rəhm edən obrazdır. |
| C) | İbn Yəmin | Xəyanətkar, şöhrətpərəst və öz mənfəəti üçün minlərlə insanın ölümünə səbəb olan mənfi obrazdır. |
| D) | Rəna | Şəfqət bacısı olsa da, onun bütün varlığına və fəaliyyətinə atasının intiqamını almaq hissi hakim kəsilib. |
| E) | İxtiyar | Arifi mədəni dünyadan uzaqlaşıb acımasız həyata gəldiyi üçün qınayır və onu İblisin tərəfinə keçməyə təhrik edir. |

66. M. Füzulinin "Leyli və Məcnun" poemasından verilmiş hissələrə əsasən cədvəldəki uyğun fikirləri müəyyən edin.

| Məzmunla bağlı doğru fikirlər | Forma xüsusiyyətləri ilə bağlı ***yanlış*** fikirlər |
|---|---|
| 1. Leyli anasının töhmətlərini eşidəndə özünü bilməzliyə vuraraq, "eşq" sözünün mənasını anlamadığını deyir. | 3. Poemada yalnız epik təhkiyədən istifadə edilib. |
| 2. Novfəl Məcnuna kömək etmək istəyərkən yalnız hərbi gücdən istifadə edəcəyini bildirir. | 4. Epik növdə, əruz vəznində yazılan bu əsərin qafiyə quruluşu məsnəvi ilə eynidir. |

A) 1, 2 B) 1, 4 C) 2, 3 D) 2, 4 E) 1, 3

67. H. Cavidin “Ana” dramı əsasında uyğun fikirləri müəyyən edin.
*Əsərdə Səlma .....*
1. Məktub yazmadığı üçün oğluna vəfasız deyir.
2. Qanpoladın gəldiyini xəbər verən Səlimə gümüş kəmər hədiyyə edir.
3. İsmətin gətirdiyi məktubu oxuyur və oğlunun gəlmə xəbərinə sevinir.
4. Muradın Qanpoladı vurduğunu bildiyi halda onu evində gizlədir.
5. Özünü xəncərlə vurmaq istəyən İsmətə mane olur.
A) 1, 2, 4 B) 2, 4, 5 C) 2, 5
D) 1, 2, 5 E) 2, 3

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

68. M.F.Axundzadənin “Aldanmış kəvakib” əsərinin obrazlarına aid uyğunluğu müəyyən edin.

| ***Obrazlar*** | ***Xarakterik davranış və ya fikir*** |
|---|---|
| 1. Şah Abbas | A. Ruhanilərin və mənsəb sahiblərinin hərəkətlərini tənqid etdiyi üçün "öldürülməsi vacib olan günahkar" elan edilir. |
| 2. Mövlana Cəmaləddin | B. Şəriətin hökmlərinə uyğun, hədsiz dərəcədə günahkar və öldürülməsi vacib olan bir nəfərin olub olmadığını soruşur. |
| 3. Yusif Sərrac | C. Şahı və əyanları inandırır ki, ulduzların təsiri ancaq taxtda oturanın başında "çatlayacaq". |

A) 1-B, 2-C, 3-A B) 1-A, 2-B, 3-C
C) 1-C, 2-A, 3-B D) 1-B, 2-A, 3-C
E) 1-A, 2-C, 3-B

69. Ə. Cavadın “Azərbaycan bayrağına” əsəri ilə bağlı ***yanlış*** fikri müəyyən edin.
A) Bayrağımızdakı mavi rəngi kökünü – Türk dünyasının ulu soylarından olan Qayı boyu ilə əlaqələndirir.
B) “Quzğun dəniz” ifadəsi ilə Xəzər dənizi nəzərdə tutulur.
C) Bayrağın kölgəsinin düşdüyü yerin müqəddəs olduğu vurğulanır.
D) Əsərdə Türklərin yaşadığı hadisələr qarşısında dərin nisgil və kədər duyulur.
E) Azərbaycanın qədim dövlətlərindən birinin adı çəkilir.

70. “Əkinçi” şeirində mülkədar obrazının xarakterini göstərən ən səciyyəvi xüsusiyyət hansıdır?
A) Kəndlinin dərdinə şərik olmaq və ona güzəştə getmək istəyi
B) Təbiət hadisələrindən qorxması və çarəsizliyi
C) Tamahkarlıq, öz rahatçılığını zəhmətkeşin canından üstün tutması
D) Kənd təsərrüfatını inkişaf etdirmək arzusu
E) Dövlət qanunlarına ciddi şəkildə riayət etməsi

71. Ş. İ. Xətayinin “Dəhnamə” əsərində Aşiqin Məşuqə ilə görüşüb ayrılması süjetin hansı mərhələsinə uyğun gəlir?



72. C.Məmmədquluzadənin "Anamın kitabı" əsəri əsasında klasteri tamamlaya biləcək fikirləri müəyyən edin.




A) 1. Mirzə Məhəmmədəli, 2. Dünyada ən bərk şeyin daş olduğunu qeyd edir.
B) 1. Rüstəm bəy 2. Hər bir qardaşın fərqli kitaba etiqad etdiyini bildirərək mehriban ola bilməyəcəklərini deyir.
C) 1. Səməd Vahid , 2. Kitablarını aparmaq üçün hambalın gələcəyini deyir.
D) 1. Zəhrabəyim, 2. Qənbərdən danışmağını və özünün də ona qulaq asmağını istəyir.
E) 1. Teymur bəy , 2. Xeyriyyə cəmiyyətində görüşüləcək məsələləri açıqlayır.

73. M. Şəhriyarın "Türkün dili" əsər ilə bağlı ***yanlış*** fikri müəyyən edin.
A) Müəllif türk dilinin musiqililiyini, doğmalığını ən yüksək zirvəyə qaldırır.
B) Şairin qənaətinə görə, Azərbaycan dili əsil ana dili kimi bu dildə danışanlar üçün əziz və istəklidir.
C) Əsərdə ciddi mətləblərə toxunulmuş, taleyüklü problemlər qaldırılmışdır.
D) Əsərdə rəhbərlərdə, idarəçilərdə "millət dərdi" olmadığı üçün uşaqların ac olduğu qeyd edilir.
E) Öz dilini eşitməyən xalq zamanla öz hüququnu tələb edə bilməyən, səsi çıxmayan "lal" bir kütləyə çevrilər fikri vurğulanır.

74. A. İldırımın "Əsir Azərbaycanım" əsəri əsasında verilənlərdən hansı ***yanlışdır***?
A) Şair vətənin dərdi ilə öz şəxsi taleyini eyniləşdirir.
B) Rüzgar mətndə şairin səsini və salamını vətənə çatdıran poetik bir vasitədir.
C) Müəllif Bakını həm sənaye simvolu, həm də təbiət gözəli kimi tərənnüm edir.
D) Şair qürbət eldə keçən günlərini mənasız sayır və vətənsizliyi böyük bir yoxluq kimi görür.
E) Əsərdə lirik qəhrəman düşmənin adını və işğalın konkret ilini açıq şəkildə qeyd edir.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

75. Verilən şeir parçası haqqında doğru fikirləri müəyyən edin.

*Bir yanda tərlanlar, dumanlı dağlar,*
*Bir yanda kəkliklər, ayna bulaqlar,*
*Bir yanda bülbüllər, çiçəkli bağlar,*
*Mən bu tamaşadan necə əl çəkim?*

1. Şeirin bütün misralarında inversiyadan istifadə edilib.
2. Sonuncu misrada bədii suala aid nümunə işlənib.
3. Nümunədə zəngin qafiyədən istifadə edilib.
4. Bədii təsvir vasitələrindən yalnız təşbehdən istifadə edilib.
5. Təkrirə aid epiforadan da istifadə edilmişdir.
6. Altından xətt çəkilmiş hissədə bədii təsvir vasitəsi işlənmişdir.

A) 2, 3, 6 B) 1, 4, 5 C) 2, 4, 5
D) 1, 3, 6 E) 3, 5, 6

76. M. Müşfiqin "Həyat sevgisi" şeirinin məzmun xüsusiyyətləri ilə bağlı doğru fikri müəyyən edin.
A) Lirik qəhrəman gənclik illərinin geridə qalmasından kədərlənir və gələcəyə böyük bir ümidsizliklə baxır.
B) Əsərdə təbiət yalnız dinc, sakit və toxunulmaz tərəfləri ilə vəsf olunur, fırtına və tufanlar isə həyatın bəlası kimi pislənir.
C) Məzmunda insanın yaradıcı əməyinə və sənətin daşları canlandıran gücünə yüksək qiymət verilir, həyat nikbin şəkildə tərənnüm olunur.
D) Şair şəhər həyatının sənayeləşməsini tənqid edərək insanları yalnız kənd yerlərində yaşamağa və əkinçiliklə məşğul olmağa çağırır.
E) Məzmunda ölüm qorxusu yaşamaq eşqinə tamamilə qalib gəlir, lirik qəhrəman dünyadan əl çəkməyə məcbur olduğunu etiraf edir.

77. M. Şəhriyarın "Heydərbabaya salam" əsəri ilə bağlı doğru fikirləri müəyyən edin.
1. Əsərdə Azərbaycanın etnoqrafik xüsusiyyətlərinə də toxunulmuşdur.
2. Avtobioqrafik poemadır və əsər ancaq müəllifin öz uşaqlıq xatirələri əsasında yazılmışdır.
3. Vahid süjet xətti olan bu əsər poema janrındadır.
4. Heca vəznində yazılıb və beşlik şəklindədir.
5. Azərbaycan xalq mahnılarının adı çəkilir.

A) 2, 3, 4 B) 1, 2, 3 C) 1, 4, 5
D) 2, 4, 5 E) 2, 3, 5

78. "Nürəddin" əsərinin (S.S.Axundov) janr xüsusiyyət-ləri baxımında ***yanlış*** fikri müəyyən edin.
A) Hadisələr bir obrazın ətrafında cərəyan edir.
B) Obrazların sayı digərlərinə nisbətən çox olur.
C) Əsərin olduğu janr nəsrlə yazıldığı kimi nəzmlə də yazıla bilir.
D) Yazılı ədəbiyyatın epik növünün ən kiçik janrlarından biridir.
E) "Hikmətin fəziləti" əsərinin janrı ilə eynidir.

79. N.Vəzirovun “Müsibəti-Fəxrəddin” əsərinə əsasən cədvəldəki boşluqlara uyğun gələn fikirləri müəyyən edin.

Gülbahar xanım Rüstəm bəyin ev yandırmaq planını eşidir.
↓
..............................................................
↓
Hürü nənə Rüstəm bəyin planını Fəxrəddinə çatdırır.
↓
..............................................................
↓
Məhərrəm Fəxrəddini vurulmasına razı olmur.

1. Rüstəm bəy Əhməd və Vəliyə bağladıqları əhdi-peymanı xatırladır.
2. Mələk xanım Fəxrəddindən atasının qisasını almasını istəyir.
3. Hürü nənə Rüstəm bəyin tüfəng götürüb getdiyini deyir.
4. Fəxrəddin bəy Şahmar bəyə heç kəsə güllə atılmasın deyə tapşırıq verir.

A) 1, 3 B) 2, 3 C) 3, 4
D) 2, 4 E) 1, 4

80. Verilmiş əsərlərə görə uyğunluğu müəyyən edin.
1. “Maral”
2. “Şeyda”
3. “Azər”
a. Bakı mətbəə işçilərinin həyatından bəhs edilir.
b. Müəllifin Şərq-Qərb müstəvisində Azərbaycana baxışları əks olunmuşdur.
c. Pula, sərvətə aludəçiliyin cəmiyyətdə törədə biləcəyi faciələr əks etdirilib.

A) 1-a, 2-b, 3-c B) 1-c, 2-b, 3-a
C) 1-c, 2-a, 3-b D) 1-b, 2-c, 3-a
E) 1-b, 2-a, 3-c

81. Biri “Basatın Təpəgözü öldürdüyü boy”a aid hadisələr sırasında ***verilə bilməz***.
A) Düşmənin Oğuz elinə hücumu nəticəsində xalqın köç etməsi
B) Qazanın düşmən üzərində qələbə qazanması
C) Xalqı qorumaq üçün başqa bir insanın qurban verilməsi.
D) Dədə Qorqudun məsləhəti ilə işlərin müəyyən qədər nizama salınması
E) Cəmiyyətdə özünü apara bilməyənlərin xalqdan təcrid olunması

82. M.F.Axundzadənin “Müsyö Jordan və dərvişi Məstəli şah” əsərinə əsasən cədvəldəki ***yanlış*** fikirləri müəyyən edin.

| Səbəb | Nəticə |
|---|---|
| 1. Gülbahar anasına Şahbazın Parisə gedəcəyini deyir. | Şəhrabanu Hatəmxan ağanın yanına gedir. |
| 2. Hatəmxan ağa Şahbaza Firəng dilini nəyə görə öyrənmək istədiyini soruşur. | Şahbaz bəy yaşadığı yeri qamışlıq adlandırır. |
| 3. Müsyö Jordan Parisin dağıldığını deyir. | Şahbaz bəy Parisə gedə bilmir. |
| 4. Şəhrəbanu Xanpəriyə Şahbaz bəyin Parisə getməməsi üçün bir əlac tapmağı tapşırır. | Xanpəri Müsyö Jordanın cəzalandırılmasını məsləhət bilir. |

A) 1, 3 B) 2, 4 C) 3, 4
D) 1, 2 E) 2, 3

**Açıq tipli test tapşırıqları:**

83. Verilən cədvəl əsasında uyğunluğu müəyyən edin.

| ***“Qafqaz müsəlmanların xitab” əsərinin forma xüsusiyyətlərinə aid doğru fikirləri müəyyən edin.*** | ***“Qurbanəli bəy” əsərinin məzmununa aid doğru fikirləri müəyyən edin.*** |
|---|---|
| 1. Sərbəst ölçüdə yazılan bu əsərdə misradaxili qafiyələnmədən də istifadə edilmişdir.<br><br>2. Qafiyələnmə quruluşu İ.Nəsiminin “Sığmazam” əsərində olduğu kimidir.<br><br>3. Şeir şəkli “Hikmətin fəziləti” əsəri ilə eynidir. | 4. Yazıçı əsərdə lovğa və yaltaq mülkədarları satirik qələmlə təsvir edib.<br>5. Qurbanəli bəy aşağı təbəqənin adamları ilə çox kobud rəftar etdiyi üçün sonda peşman olur.<br>6. Nəsrlə yazılan bu əsərin ilk nümunələrinə intibah dövrü Azərbaycan ədəbiyyatında rast gəlinir. |

84. “Durna teli” (“Koroğlu” eposu) qoluna əsasən cədvəldəki ***uyğunsuzluqları*** müəyyən edin.

| Obraz | Obraz haqqında fikirlər |
|---|---|
| 1. Aslan paşa | Qoruqçunun xidmətinin qarşılığında ən yaxşı atı - Qıratı mükafat kimi ona verir. |
| 2. Giziroğlu | Koroğlu ilə olan ədavətini sonlandırmaq üçün onunla döyüşür. |
| 3. Xoca Əziz | Aslan paşanın qoruqçusuna pul verərək Qıratı ondan alır. |
| 4. Qoca kişi | Koroğluya şəhərə tək girməsini məsləhət bilir. |
| 5. Nigar xanım | Eyvazın Bağdada getməsinə icazə vermir. |

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
T.me/BirlikTeam

85. "Xan sarayı" əfsanəsi ilə bağlı doğru fikirləri müəyyən edin.
1. Xan qocaldığı üçün adını əbədiləşdirmək istəyir.
2. Usta zəhmətinin qarşılığında çoxlu qızıl alarsa, sarayı tikəcəyini bildirir.
3. Xan ustanın gördüyü işi bəyənmədiyi üçün onun əllərini kəsdirir.
4. Xan ustanı nankor, qədirbilməz adlandırır.
5. Usta xanın qəzəbindən qorxmur və şəyirdlərinin onun sənətini davam etdirəcəklərini söyləyir.

86. M. Füzulinin "Söz" qəzəli ilə bağlı doğru fikirləri müəyyən edin.
1. Qəzəl əruz vəzninin həzəc bəhrində yazılmışdır.
2. Müəllifə görə, sözə dəyər verən, onun qədrini bilən insanın cəmiyyət içində öz dəyəri və hörməti də artar.
3. Şair bədəni sədəfə (mirvari qabına), sözü isə o sədəfin daxilindəki çox qiymətli şahlara layiq mirvariyə bənzədir.
4. Qəzəlin sonuncu beytində müəllif bədii təsir gücünü artırmaq üçün çox danışmağın insanı hər zaman əziz və möhtərəm etdiyini vurğulayır.
5. Əsərdə söz qeyb aləminin pərdəsi arxasından öz gözəl üzünü göstərən sevgiliyə bənzədilmişdir.

87. Verilən əsərlər əsasında uyğunluğu müəyyən edin.
1. "Hikmətin fəziləti"
2. "Sultan Səncər və qarı"
a. Hökmdar vəzifəsini düzgün icra edə bilmir.
b. Qocanın nitqi hökmdarın xoşuna gəlir və onu düzgün qiymətləndirir.
c. Hökmdar müdrikliyi ilə ona etibar edilən işi ləyaqətlə yerinə yetirir.
d. "İnsan haqlı olduqda hər zaman güclüdür" fikri təbliğ edilir.

***Sizə təqdim olunmuş nümunəni diqqətlə oxuyun və 88-90 saylı tapşırıqları yerinə yetirin.***

**Padşah və şair**

Qədim Təbrizdə "şöhrət azarı"na tutulmuş, xudbin və ağılsız bir padşah vardı. O, hər sənətdə birinci olmağı və təriflənməyi xoşlayırdı. Dövlətin idarəsinə nəzarət edə bilmirdi. Ağıllı adamları zindana saldığı üçün ətrafı yaltaq, hiyləgər və ikiüzlü məmurlarla dolmuşdu.

Həmin dövrdə Üsgü dərəsində xalqın rəğbətini qazanmış müdrik bir şair yaşayırdı. Camaat şairi çox sevirdi. Şairin adı yavaş-yavaş Üsgü dərəsini aşdı, başqa kəndlərə yayıldı. Hər yerdə onun ağıl-kamalından, xeyirxahlığından danışmağa başladılar.

Şairin şöhrəti artdıqca, padşah onu saraya gətirmək qərarına gəldi. Bununla hökmdar həm şairi nəzarətdə saxlamaq, həm də xalqın gözündə öz hörmətini qaldırmaq — yəni "bir oxla iki ov vurmaq" istəyirdi.

Padşahın göndərdiyi hədiyyələri və dəvəti rədd edən şair, azadlığını saray ehtişamından üstün tutdu. Lakin padşah əl çəkməyib şəxsən özü gəldi Üsgü dərəsinə. Şair çarəsiz qalıb saraya getməyə məcbur oldu.

İlk vaxtlar padşah onunla mülayim rəftar edirdi. Lakin doğma yurdu və sadə kəndlilər üçün darıxan şair getdikcə daha yanıqlı şeirlər yazmağa başladı. O, bu əsərlərində üstüörtülü şəkildə saray məmurlarının eybəcər əməllərini ifşa edir, xalqın dərdlərini dilə gətirirdi. Bu şeirlər xalqa su kimi sərinlik gətirir və sürətlə camaat arasında yayılır, şairin nüfuzunu daha da artırırdı.

*(Mirzə İbrahimov)*

88. "Padşah və şair" mətni ilə N.Gəncəvinin əsərlərindən verilmiş obrazlar əsasında cədvəli tamamlayın.

| Təbriz padşahının Feyləqusdan ***fərqli*** cəhətləri | Təbriz padşahının Sultan Səncərlə ***oxşar*** cəhətləri |
|---|---|
| | |

89. Mirzə İbrahimovun "Padşah və şair" parçası ilə "Çahargah" əfsanəsi əsasında cədvəli tamamlayın.

| ***Məzmun oxşarlığı*** | ***Forma oxşarlığı*** |
|---|---|
| 1. | 1. |
| 2. | 2. |

90. M.İbrahimovun "Padşah və şair" parçasına əsasən cədvəli tamamlayın.

| *İşlənmiş fərqli bədii təsvir və ifadə vasitələri* | *Parçadan nümunə* |
|---|---|
| **Bədii təsvir vasitələri:** | |
| 1. | |
| 2. | |
| **Bədii ifadə vasitələri:** | |
| 1. | |
| 2. | |

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı